# Tbilisidə "Milli dövlətçiliyimizin simvolu" kitabının təqdimatı

**Tbilisidə Azərbaycan və gürcü dillərində nəşr edilmiş "Milli dövlətçiliyimizin simvolu" kitabının təqdimatı olub.**



Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov çıxış edərək, kitabın ulu öndərin 100 illik yubileyi tədbirləri çərçivəsində çap olunduğunu bildirib. Qeyd edib ki, epoxaların ekstremallığına baxmayaraq, milli-siyasi elitamız Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə millətin varlığının qorunması və inamla gələcəyə addımlaması istiqamətində üzərinə düşən missiyanı layiqincə yerinə yetirib.

Gürcü politoloqlar Levan Mamaladze, Simon Kopadze, Gürcüstan parlamentinin deputatı Baçuki Kartava, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Tbilisi Dövlət Universitetinin professoru Niko Cavaxişvili və digərləri çıxışlarında çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycan–Gürcüstan dostluğunun inkişafındakı xidmətlərindən danışıblar. Bildiriblər ki, Heydər Əliyelvə Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze arasındakı möhkəm dostluq ölkələrimizin münasibətlərinin əsasını təşkil edir. Bu gün regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrinin Gürcüstan ərazisindən keçməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 14 may.- S.5.